# Müştərilərimizin məmnunluğu bizim ən böyük uğurumuzdur



Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son on ildə Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrilmişdir.

Artıq il başa çatır. Yola salmağa hazırlaşdığımız il dünyada və ölkəmizdə bir çox hadisələrlə zəngin olmuşdur. Hazırda hər kəs geriyə boylanıb öz-özünə hesabat verir, qazandığı uğurları təhlil edir, buraxdığı nöqsanları bir daha təkrar etməməkdən ötrü gələcək planlarını qurur.

Son illər ölkəmizdə əldə etdiyimiz uğurlar iqtisadiyyatda real sektorun çəkisini günü-gündən artırır. Bu da ilk növbədə Azərbaycanda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Ölkəmizdə yaradılan əlverişli investisiya mühiti sayəsində bu gün yerli və xarici iş adamları həvəslə müxtəlif istehsal və xidmət sahələrinə sərmayə qoyurlar. Belə xidmət sahələrindən biri də “Caspian Catering Service” şirkətidir. Şirkət 2008-ci ilin iyun ayında təsis edilib. Bu gün şirkət Azərbaycanda və onun hüdudlarından kənarda neft və qaz yataqlarının istismarına cəlb olunmuş şirkətlərə dənizdə və quruda keytrinq xidmətləri göstərir.

“Caspian Catering Service” hazırda işə peşəkar yanaşma və işçi qüvvəsinin səmərəli bölüşdürülməsi sayəsində dinamik inkişaf edən şirkətə çevrilmişdir. Kollektivimiz artıq mükəmməl iş təcrübəsinə, o cümlədən də qida və ekoloji təchizat sahəsində dərin biliyə malik olan peşəkarlardan ibarətdir. Şirkətin məqsədi işçilərin çalışdığı şəraitdən asılı olmayaraq iş yerinə ev-məişət rahatlığının gətirilməsidir.

Biz dənizdə və quruda yerləşən müəssisələri yeməklə təmin etmək üzrə peşəkar xidmət göstəririk. Bizim şirkət təchizat gəmilərində, platformalarda və yedəklərdə quru və dəniz ərazilərində işləmək üçün sertifikatlaşdırılmış yüksək ixtisaslı işçi qüvvəsinə malikdir. Məqsədimiz müştərilərimizi gülərüz və mehriban işçi heyəti vasitəsilə Azərbaycan və dünya mətbəxinin dadlı, ləzzətli, ekoloji cəhətdən sağlam qida ilə təmin etməkdir.

“Caspian Catering Service” əməkdaşları şirkətin daxilində və xaricdə keçirilən treninqlərdə öz təcrübələrini daima artırırlar. Treninqlər sayəsində biz sahil və dəniz ərazilərində müştərilərin tələbatlarını ödəmək üçün münasib peşəkar və sertifikat almış işçi heyəti təyin edirik. Bütün mətbəx işçiləri tibbi yoxlamalar haqqında sənəd və sertifikatlara malikdirlər. Şirkətin fəaliyyəti Xəzərin bütün sahillərini — Azərbaycan, Rusiya, Qazaxıstan və Türkmənistanın ərazi sularını əhatə edir.

Hazırda “Caspian Marine Services” şirkəti ilə sıx əməkdaşlıq edirik və 8 gəmidə xidmətlər göstəririk. Bu gəmilərdən 5-i Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qazma platformalarına işçilərin daşınması ilə məşğul olur.



Biz, həmçinin “Saipem” şirkətinə, “Azərbaycan” kran gəmisində çalışanlara da xidmət göstəririk. Bundan başqa, “McDermott” şirkətinin “İsrafil Hüseynov” borudüzən və “Tofiq İsmayılov” dalğıc gəmilərinə xidmətlərimizi təqdim edirik. Bununla yanaşı, biz “Topaz Marine” şirkətinin 12 gəmisinə xidmət göstəririk. Cari ilin əvvəlində “Swire Pacific” şirkəti ilə də müqavilə bağlamışıq. Bu şirkət Xəzər dənizinə müasir tipli yeni dalğıc gəmisi gətirib. Hazırda biz, ümumilikdə, 30-dan artıq gəmidə, eyni zamanda zavodların yeməkxanalarında gün ərzində 2 min nəfərdən artıq işçiyə iaşə xidməti göstəririk.

Bildiyiniz kimi, cari il sentyabrın 20-də “Şahdəniz-2” layihəsinin icrasına başlanıldı. Bu nəhəng layihənin icrası bizim şirkətin də işinə müsbət təsir göstərəcək. Düşünürəm ki, 2015-ci ildə xidmətlərimizi təqdim edəcəyimiz gəmilərin sayı 50-yə çatacaq.

Biz bazarda şirkətimizin nüfuzunu möhkəmləndirmək məqsədilə 2014-cü ili təqdim edilən xidmətlərin keyfiyyətini yüksəltməyə həsr etmişdik. Buna görə də bu il və növbəti illərdə bütün fəaliyyətimizi hətta bu və ya digər layihənin maya dəyərindən baha başa gəlsə belə, servisin səviyyəsinin və təqdim edilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə yönəldəcəyik. Eyni zamanda, bu, həm xidmətlərin keyfiyyətinin, həm də işçilərin və şəxsi heyətin ixtisasının artırılmasını özündə birləşdirən kompleks yanaşma olacaq. İşçilərin ixtisasının artırılması məqsədilə biz bu sahədə xarici ölkələrdən mütəxəssisləri cəlb etməyi planlaşdırırıq.

İnamla deyə bilərəm ki, son 6 ildə biz əməkdaşlıq etdiyimiz qurumların etibarını qazanmışıq və bu şirkətlər yeni layihələr planlaşdıranda “Caspian Catering Service” ilk növbədə keytrinq xidmətlərinin tədarükçüsü kimi nəzərə alınır. Xidmət göstərdiyimiz gəmilərdən “İsrafil Hüseynov”, “Azərbaycan”, “Akademik Tofig İsmaylov”, Seabed Supporter, “Qurban Abbasov”, “General Əliağa Şıxlinski”, Nefteqaz-62, Nefteqaz-58, Neftegaz-64, Araz, Xudafərin, Qız Qalası, Gülüstan və digərlərini qeyd etmək olar.

Şirkətimizin uğurunun əsasında, şübhəsiz ki, müştərilərimizlə qarşılıqlı anlaşma, əməkdaşlıq, etimad və inam durur. Bu, əlbəttə ki, işimizin başlıca prioritetidir.

Eyni zamanda, təhlükəsizlik qaydalarına, əməyin gigiyenası, ətraf mühitin mühafizəsi və sanitar normalara beynəlxalq standartlara uyğun olaraq riayət olunması “Caspian Catering Service” şirkətinin işinin əsasını təşkil edir. Şirkətin təqdim etdiyi xidmətlərin keyfiyyəti İSO 90001:2008, İSO 14001:2004 və OHSAS 1800:2007 (iaşə və idarə olunma sistemi) ictimai qida və menecment sisteminin sənaye meyarlarına uyğundur.

Şirkətin Bakı şəhəri, Sahil qəsəbəsindəki limanda iş materialları və qida məhsullarının saxlanılması üçün nəzərdə tutulan anbarı, eləcə də məhsulların daşınması üçün ixtisaslaşdırılmış avtomobil qarajı var.

Bu gün kollektivimizin təxminən 300 nəfərdən ibarət olan bütün heyəti ildə 2 dəfə tam tibbi müayinədən keçir, bu isə qida servis xidməti şəraitində sanitar təhlükəsizlik normalarına riayət edilməsinin başlıca amilidir.

Şirkətimiz müştərilərin etibarını qazanmaqla yanaşı, öz əməkdaşlarının gündəlik məişət şəraitini yaxşılaşdırmaq, onların sosial müdafiəsini gücləndirmək istəyən iri şirkətlərin ayrılmaz hissəsinə çevrilməyi qarşısına məqsəd qoymuşdur. Biz daim istənilən şirkətlə əməkdaşlığa hazırıq və müştərilərimizin məmnunluğu bizim ən böyük uğurumuzdur.

**Seymur MUSTAFAYEV,**
**“Caspian Catering Service” şirkətinin direktoru.**

